# "BİR könüllü"lər ŞUŞADA




## Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi ilə birgə əməkdaşlığa start verilib

Təhsil Nazirliyinin "Bir könüllü" təşkilatı və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi arasında birgə əməkdaşlığa start verilib.

Əməkdaşlıq çərçivəsində "BİR" tələbə-könüllülər 80-dən çox Şuşa sakininin Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhərinə səfərində iştirak ediblər. Səfər zamanı yaşlı nəslin nümayəndələri, Qarabağ qaziləri və şəhid ailələrindən ibarət heyət #BİR könüllülər tərəfindən müşayiət olunub.

Qeyd edək ki, "Bir könüllü" təşkilatı Qarabağ bölgəsindən olan tələbə-könüllülər üçün "Qarabağ Könüllüləri" klubunu yaradıb. Klub çərçivəsində Qarabağ bölgəsindən olan tələbə-könüllülər şəxsi inkişafı və asudə vaxtının səmərəli dəyərləndirilməsi üçün müxtəlif təlim və seminarlarda, intellektual oyunlarda iştirak edə, həmçinin, könüllü fəaliyyət göstərə bilərlər. "BİR" könüllü olmaq istəyən tələbələr *www.konullu.edu.az* saytı vasitəsilə qeydiyyatdan keçə və təşkilata üzv ola bilərlər.